# “İkitərəfli SMS” xidmətinə qoşulma üzrə İstifadəçi təlimatı

**“İkitərəfli SMS”** xidmətinə İnternet Vergi İdarəsi portalı vasitəsilə qoşulmaq məqsədilə Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsinə (https://new.e-taxes.gov.az/etaxes/) giriş edib, aşağıda qeyd olunan identifikasiya vasitələrindən istifadə etməklə elektron kabinetə daxil olmaq lazımdır:

- Asan İmza;

- SİMA İmza;

- SİMA Token;

- İstifadəçi kodu, parol və şifrə.

Elektron kabinetə daxil olduqdan sonra açılan əsas səhifədə **“Digər xidmətlər”** modulu seçilir.




Növbəti mərhələdə “Digər xidmətlər” modulunda təqdim olunan elektron xidmətlər siyahısından **“İkitərəfli SMS”** xidməti üzrə müvafiq seçim edilir.




Açılan pəncərədə "İkitərəfli SMS" xidmətinin aktivləşdirilməsi məqsədilə **"Qeydiyyat"** düyməsi seçilib, mobil telefon nömrəsi müvafiq xanaya daxil edilir və **"Davam et"** düyməsi sıxılır.







Bu mərhələdə sistem tərəfindən qeyd edilmiş mobil telefon nömrəsinə təsdiq kodu göndərilir.




Təsdiq kodu düzgün daxil edildikdən sonra mobil telefon nömrəsi sistemdə qeydiyyata alınır və qeydiyyatın uğurla tamamlanması barədə məlumat ekranda əks olunur.




Növbəti mərhələdə qeydiyyata alınmış mobil nömrə ilə "İkitərəfli SMS" xidmətinə abunə olmaq üçün **"Abunə ol"** düyməsi seçilir.




Daha sonra **"Davam et"** düyməsi sıxılır və mobil telefon nömrəsinə növbəti **təsdiq kodu** göndərilir.







"İkitərəfli SMS" xidmətinə abunəlik uğurla tamamlandıqdan sonra qeyd edilmiş mobil telefon nömrəsinə məlumatlandırıcı bildiriş göndərilir.




Eyni zamanda ekranda "Abunəlik" statusu və "Abunə olduğu tarix" barədə məlumatlar əks olunur.



**Abunəliyin ləğv olunması**

“İkitərəfli SMS” xidmətinə abunəliyin ləğv edilməsi məqsədilə **“Abunəliyi ləğv et”** düyməsi seçilir və açılan pəncərədə **“Davam et”** düyməsi sıxılır.







Bu zaman sistem tərəfindən qeyd edilmiş mobil telefon nömrəsinə təsdiq kodu göndərilir.



Abunəlik ləğv edildikdən sonra ekranda “Abunəlik” statusu **və** “Abunəliyin ləğv olunma tarixi” barədə məlumatlar əks olunur.




**Qeyd 1:** Bir VÖEN üzrə say məhdudiyyəti tətbiq edilmədən istənilən sayda mobil telefon nömrəsi ilə “İkitərəfli SMS” xidmətinə abunə olmaq mümkündür.

**Qeyd 2:** Bir mobil telefon nömrəsi ilə say məhdudiyyəti tətbiq edilmədən bir neçə VÖEN üzrə “İkitərəfli SMS” xidmətinə abunə olmaq mümkündür.

**Qeyd 3:** Abunəliyi ləğv edilmiş mobil telefon nömrəsi üzrə “İkitərəfli SMS” xidmətinə yenidən abunə olmaq mümkündür.